*Eşqanə Babayeva. Yaqub Qədri Qaraosmanoğlunun "Nur baba" və İsmayıl Şıxlının "Dəli Kür" romanında dini fanatizmin tənqidi // Əlyazmalar yanmır, 2018, № 2 (7), s. 91-96.*

UOT: 82.0

**Eşqanə Babayeva**
*filologiya üzrə fəlsəfə doktoru., dosent*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*Bakı şəhəri., H.Cavid prospekti 115*
*eshqane@mail.ru*

# YAQUB QƏDRİ QARAOSMANOĞLUNUN "NUR BABA" VƏ İSMAYIL ŞIXLININ "DƏLİ KÜR" ROMANINDA DİNİ FANATİZMİN TƏNQİDİ

**Açar sözlər:** *Türk ədəbiyyatı, Azərbaycan ədəbiyatı, müqayisə, Y.Q.Qaraosmanoğlu, İsmayıl Şıxlı, dini-fanatizmin tənqidi.*

**Key word:** *turkish literature, azerbaijani literature, comparison, Yagub Gadri Garaosmanoghlu, Ismayil Shikhli, the criticism of religious fanaticism.*

**Ключевые слова:** *Турецкая литература, Азербайджанская литература, сравнение, Якоб Кадри Гараосманоглу, Исмаил Шихли, критика религиозного фанатизма.*

*XX əsrin əvvəlləri türk ədəbiyyatında diqqəti cəlb edən məsələlərdən biri də dini-fanatizmin tənqidi idi. Tarixə nəzər saldıqda, 1923-cü ildə Türkiyədə Cümhuriyyətin qurulduğunu, bununla da ictimai-siyasi həyatda olduğu kimi, ədəbiyyatda da yeni tendensiyaların yarandığını görürük. Bu mərhələdə yeni bir ədəbi proses başlamışdır, qərbləşmə hərəkatı, şərq-qərb dilemması kimi məsələlər ön plana çıxmışdır. Atatürkün ideiologiyası (ilkələri), xüsusən də dinin dövlətdən ayrı qəbul edilməsi (laiklik) prinsipləri ədəbiyyata da sirayət etmişdir.*

XX əsrin əvvəlləri qələmə alınmış türk romanlarını tədqiq edərkən, dinə müxtəlif baxışların olduğu qənaətinə gəldik. Tədqiqatçı Ramazan Güləndam "Türk romanında dinə və din adamına baxış" adlı məqaləsində romanları dinə baxış nöqteyi-nəzərindən 3 qrupa ayırır:

1) Dini və dindarları tamamilə mənfi obraz olaraq ələ alanlar (Məsələn, Rəşad Nuri Güntəkinin "Yaşıl gecə" romanı).
2) Mənfi və müsbət xüsusiyyətləri ilə ələ alanlar. A) Mənfi obraz kimi ön planda olan romanlar (Məsələn, X.Ə.Adıvarın "Vurun əxlaqsıza" romanı). B) Müsbət cəhətləri daha ön planda olanlar (Əhməd Altanın "Qılınc yarası kimi", "Üsyan günlərində eşq" və s.)
3) Din və dindarlığı tamamilə müsbət şəkildə ələ alanlar (Məsələn, Tarık Buğranın "Kiçik Ağa" romanı) (1, s.303) .

Təsnifatdan da bəlli olduğu kimi, türk romanlarında din və dinə baxış müxtəlif aspektlərdən ələ alınır. Tam obyektivliklə, bu əsərlərə nəzər saldıqda dinin deyil, dini fanatizmin, xurafatın tənqid atəşinə tutulduğunu görürük. Bu baxımdan, Yaqub Qədri Qaraosmanoğlunun "Nur baba" ("Nur ata") romanı diqqəti cəlb edir.

Roman ilk öncə 1921-ci ildə "Axşam" qəzetində hissə-hissə nəşr edilir, 1922-ci il aprel ayında isə kitab şəklində çap olunur (2, s.258). Professor Qiyasəddin Aytaş yazır ki, əsər hələ kitab şəklində nəşr olunmamışdan öncə, haqqında bir çox dedi-qodu yayılır. Bu vəziyyət yazıçını tədirgin etmiş olmalı ki, əsərin kitab şəklində çapı ləngimişdir (3, s.121). Hətta kitab nəşr olunarkən, "Axşam" qəzetində bu romanla bağlı, Bektaşiliyin tənqidinə görə yazıçı, romanın əvvəlinə bir izahat da yazaraq nəşr etmişdir. Yaqub Qədrinin "Kirayəlik ev" (Kiralık konak) əsərində ailə dəyərlərinin çökməsi necə qələmə alınırsa, "Nur baba" romanında da

dini, milli-mənəvi dəyərlərin çöküşü, din pərdəsi altında görülən işlər ifşa edilir. Ümumiyyətlə, professor İnci Enginünün sözləri ilə desək, Yaqub Qədri bir çöküş dönəminin yazıçısıdı (2, s.257). "Nur baba" romanında imperatorluğun tənəzzülə uğramağa başladığı bir dövrdə dini müəssələrin də mahiyyətini dəyişərək, çöküşü əks olunur.

Qeyd edək ki, yazıçının avtobiaqrafiyasını tədqiq etdikdə, yazıçının 1916-cı illərdə Bektaşi təkkəsinə gedib gəldiyi, şərq mistisizmi ilə yaxından maraqlandığını öyrənirik (4, s.47). 1912-ci ildə vərəm xəstəliyinə düçar olan yazıçı, müalicə üçün İsveçə getməmişdən öncə bir müddət Bektaşi təkkəsinə gedir. Sonralar, yazıçı "Gənclik və ədəbiyyat xatirələri" əsərində də uzun-uzadı bu məsələdən, hətta Yəhya Kamalı da bir dəfə ora aparmağından bəhs edir (3, s.120-121)

"Nur baba" romanında hadisələr bir təkkədə cərəyan edir. Digər təriqətlərdə olduğu kimi burada da, onların özünəməxsus ayinləri və hər kəsi asanlıqla təkkəyə qəbul etmədikləri, ən başlıcası isə təkkə haqqında çoxlu dedi-qoduların yarandığı təsvir edilir. Əsərin qəhrəmanı Nur baba adıyla tanınan bir "şeyx"dir. Zövq-i səfa, qadın və pul düşkünü olan bu zat, qara saqqallı, əsrarəngiz və gözəl bir səsə malikdir. Təkkəyə düşən varlı qadınlar, mal-mülklərini onun yolunda qoyurlar. Yazıçı, Nur babanın hansı şərtlər altında böyüyüb ərsəyə çatmasını, şeyx olmasını belə təsvir edir:

"Nur baba, Nur baba kimi doğulmamışdır. O, bundan 25 il əvvəl, indiki şeyxlik postunu işğal etdiyi bu dərgaha sığınan bir zavallı idi. Mühiblər arasında "Nuri" adıyla tanınırdı. Sələfi Əfif baba 4-5 dəfə evlənsə də övladı yox idi. Ömrünün axırına yaxın bu məhrumiyyət onu elə əzməyə, axırıncı xanımı üzünə elə məlul-müşkül baxmağa başladı ki, zavallı mürşid artıq çarəni başını götürüb səyahətlərə çıxmaqda gördü. Bütün Asyanı, İranı və Turanı dolaşdı. İki ilə qədər Anadolunun mərkəzində qaldı, Nurini də ordan tapıb gətirdi (5, s.126)." Cılız, zəif vücudlu bu uşaqla ovunan Əfif baba, uşağın hər bir ərköyünlüyünə yaramazlığına göz yumurdu. Onun bu yaramazlıqlarına dözə bilməyib təkkəni tərk edənlər belə olmuşdur. Nuri iyirmi yaşına gəldikdə vəlinemət Əfif baba ölüm döşəyinə yıxılır, heç bir fürsəti fövtə verməyən Nuri Əfif babanın xanımı Cəlilə ilə evlənib, şeyxlik postuna oturur. Təriqət ədəb-ərkanını gözəl bilən Cəlilə əvvəllər Nurini asanlıqla nəzarətdə saxlasa da, "Günün birində Qanlıcalı Ziba xanım adlı bir qadın ta meydanın ortasında, qorxular və rənglər içində bir rüzgar kimi əsdi və hər şeyi alt-üst etdi" (5, s.53).

Sayılıb seçilən ailədən olan Ziba xanım bu gündən malım da, canım da bu məqama fəda olsun deyərək, Nuri ilə təkkədə yaşamağa başlayır. Getdikcə bütün dərgah ədəb-ərkanı yox olmağa, təkkə zövq-ü səfa məclisinə dönməyə başlayır. Bir müddət sonra isə Nur baba, könlünü Zibanın qohumu, iki övlad anası Nigara qapdırır. Nigarın dərgaha girməyə əslində həvəsi yoxdur, amma Nur babaya qovuşmaq üçün istəksiz olsa da bunu qəbul edir. Əsərdə, bütün ayinlər şəkil baxımından tam, olduğu kimi təsvir edilir:

"Nigar əvvəlcə abdəst aldı. Rəhbər bir tərəfdən əlinə su tökür, digər tərəfdən oxunacaq duaları öyrədir. Bu dualar olduqca sadə, türkcə idi. Məsələn qulaqlar islanarkən "Bu qulaqlar daim pis sözə, dedi-qoduya qapalı olacaq", gözlər islanarkən "Bu gözlər gördüyünü görməmiş olacaq", növbə ayaqlara gələndə "Bu ayaqlar Haqq yolundan şaşmayacaq" və s. kimi cümlələr təkrarlanır. Nigar bütün bunları titrək bir səslə, ciddi bir şey edirmiş kimi diqqət və ehtiyatla söylədi və bütün vücudu abdəstin sonuna qədər hələ ayaqları yuyulurkən, təpədən-dırnağa qədər ürpərişlər içində qaldı... Abdəst mərasimi bitdikdən sonra bizi, öz ifadələri ilə desək- "yalın ayaq, başı qabaq" meydanın qapısının ağzına gətirdilər (5, s.109-110)." Beləcə, sətirlər boyu təriqətə daxil olarkən icra edilən ayinlər zahiri görünüşü ilə təsvir edilir. Əsərdəki bu təsvirlər böyük yazıçı İsmayıl Şıxlının "Dəli Kür" romanı ilə də səsləşir. Əsərin əsas qəhrəmanı Cahandar ağa və Molla Sadıq arasında kəskin ziddiyyət konflikti ən yüksək nöqtəyə çatdırır. Əsərdə müridlik-mürşidlik məsələsi belə təsvir edilir:

"Əvvəllər Göytəpəlilər müridliyin nə olduğunu bilməzdilər. Elə uzaqdan-uzağa qonşu dağ kəndlərindən birində müqəddəs bir qəbir olduğunu, adamların oraya toplaşıb, ibadət

etdiklərini eşidərdilər. Deyilənə görə, o türbəyə müqəddəs bir adam basdırılmışdı. Onun müridləri də vaxtaşırı qəbri ziyarət edir və sonra da meyxanaya başlayırdılar. Meyxana haqqında çox qəribə şeylər söyləyirdilər: guya müridlər ibadət zamanı qızışır, əllərini közərmiş dəmirə, ya da od kimi qızmış peçə basırlar. Onların nəinki əlləri yanmır, heç istiliyi də hiss etmirlər. Ya da poqquldaya-poqquldaya qaynayan samovarı qucaqlarına alır, şaq-şaq şaqqıldayan çaydan süzüb, birnəfəsə içirlər, yenə heç nə olmur. Çox qəribə, möcüzəli sözlər danışırdılar. Müridlərin cəzb olduğu, ağızları köpüklənərək qəşş etdikləri, saatlarla bu dünyadan köçüb, o dünyada ruhlarla qovuşduqları haqqında rəvayətlər söyləyirdilər. Hər yerə belə bir xəbər yayılmışdı ki, kim türbəyə ziyarətə getsə, ya da oranın bir tikə çörəyini yesə, istədiyi arzuya çatıb, bütün qada-bəladan uzaq olar. Çox adam müridləri əfsanəvi varlıqlar, sirlərlə dolu ecazkar və müqəddəs insanlar kimi təsəvvür edirdi (6, s.156). " Əsərdən məlum olur ki, bir gün uzunsaqqallı müridlərdən biri Molla Sadığın evində 3 gün, 3 gecə qonaq qalıb, gedəndə isə ona bir kitab verir, "Bizim mürşidimiz, cəddinə qurban olduğum Seyid Nigarinindir. Oxu öyrən, başqalarını da başa sal, onun müridi ol" (6, s.156-157). Bu təklifi eşidən Molla Sadıq çox fikirləşmədən, buradan qazanc iyi gəldiyini duyub dərhal işə başlayır. Çünki ona türbəyə toplanan nəzirlərdən pay göndəriləcəyi də vəd etmişdilər. Beləcə, qısamüddət sonra Göytəpədə uzunsaqqal kişilər görünməyə başlayır. Uşaqların "keçisaqqal" – deyə ələ saldıqları bu adamların sayı tədricən artır. Kəndin camaatı, hətta gənclər belə bu işə qoşulurlar. Molla Sadıq hər yerdə onları müdafiə edir, qarşı çıxanları isə "Allah xofu", "cəhənnəm atəşi" ilə qorxudur. Yazıçı bunları təsvir etməklə əslində Molla Sadıqların din pərdəsinə büründüklərini ifşa edir. Molla Sadıq və Nur baba obrazları eyniyyət təşkil edir. Molla Sadıq da, Nur baba kimi qadın və pul düşkünüdür. Meyxanəyə hazırlıq vaxtı Molla Əmrahın Molla Sadığa qonaq gəlməsi, Sadığın "Ağam, gələnlərin içində zənənlər də var" deyib muncuq gözlərinin içinin gülməsi, aralarındakı dialoqlar tamamilə onun iç üzünü açıb göstərir. "Dəli Kür"də diqqəti cəlb edən obrazlardan biri də Cahandar ağanın bacısı, dul qadın Şahnigardır. "Nur baba" romanındakı Cəlilədən, Ziba xanımdan, Nigardan, Süheyladan fərqli olaraq, Şahnigar xanım bu tələyə avamlığından, "Allah xofundan" düşür. Molla Sadıq Cahandar ağanı nə qədər müridliyə cəlb etsə də, bacarmır. Aşağıdakı dialoqda bu konflikt özünü göstərir.

"- Sən niyə dinsizlik edirsən, Allahın qəzəbindən qorxmursan?
- Bilirsən nə var, Molla Sadıq, mənim elə uşaqlıqdan səndən xoşum gəlmir, ... adama oxşayırsan.
- Sən dini, Allahı danırsan.
- Allahda işin olmasın!
- Sən kafirsən!
- Molla, mənə lotuluq gəlmə, get dınqırını süz. Mən Allahımı da tanıyıram, peyğəmbərimi də (6, s.161)."

Beləcə, Molla Sadıq onun oyununa gəlməyən Cahandar ağadan intiqam almaq üçün fürsət axtarır. Beləliklə, Şahnigarı öz dəstəsinə çəkməyə çalışır. Nümunəyə nəzər yetirək;

"Lap uşaqlıqdan cinə, ərdoya inanan, qorxulu, uydurma nağılları bir həqiqət kimi qəbul edən Şahnigar xanım tez tələyə düşdü. İkicə ayın içində ona inandırdılar ki, müridlik savab işdir. Onlara qoşulan cənnətlik olacaq.

Şahnigar xanım Seyid Nigarinin kitabını Quranla yanaşı qoydu. Gecələri çətinliklə də olsa mollaxanada oxuduğu hərfləri yadına salıb höccələyə-höccələyə şeirləri əzbərlədi. "Ərim yox, uşağım yox, elə Allahın bədbəxtiyəm, - deyə düşündü. – Bəlkə qəzəbə gəlmişəm. Günahım çoxdur. Onun üçün də rəhminə qurban olduğum mənə gəc baxır. Bəlkə gec deyil, elə bu müridlərə qoşulsam, kəramət sahibi məndən mərhəmətini əsirgəməz?" Arvad çox düşündü. Belə bir yoldan geri dönsə, axirət dünyasında oda qalanacağını gözünün qabağına gətirdi və razılıq verdi (6, s.162)."

Qeyd edək ki, Bektaşilikdə eyni zamanda, Nigarilikdə "ayin-i cəm" çox önəmli yerə sahibdir. Könül birliyi ilə bir yerə toplanmaq mənasını verən ayin-i cəm, həftənin bəlli günlərin-

də, müəyyən qaydalara riayət edilərək həyata keçirilən bir ayin idi. Bu ayinə yalnız təriqətdə olanlar girə bilirdi. Həm "Nur baba" romanında, həm də "Dəli Kür"də bu müqəddəs ayin adı altında rəzalət təsvir edilir. "Nur baba"dakı təsvirlərə nəzər yetirək;

"Gecə yarısına doğru meydanı şeyda bir coşqunluq istila etdi. Mürşidlər səmaya, qadınlardan bəziləri rəqs etməyə qalxdı. Əfifə xanım başda olmaqla, onun kimi bir-iki seçilmiş qadın, onun-bunun önündə diz çökərək, aşiqanə bayatılar, türkülər söyləməyə başladılar (5, s.136)".

Eyni mənzərə ilə "Dəli Kür"də rastlaşırıq:

"Artıq gecə keçirdi. Meyxananı başlamaq olardı.

Qonağa nazik sini verdilər. O dərhal dikəlib bardaş qurdu. Qalan müridlər də arvadlı-kişili diz üstə oturdular. Molla Sadıq da diz üstə çökdü. Şahnigar xanım böyük təəccüblə qonağın asta-asta sini çalmasına baxdı. Birdən kişi yaşına uyğun olmayan zil və məlahətli səslə oxudu. Oturanlar bir ağızdan təkrar edib, yerlərində yırğalandılar.

Şahnigar xanım yanındakı arvadların da dingildədiyini gördü. Hamı titrətməli kimi silkələnir, asta-asta sağa-sola ləngər vururdu (6, s.162)."

Şahnigar xanım elə müridlərə qoşulacağı gecə, ordakıların dingildədiyini, zümzümə edib, özlərindən getdiyini, qadın-kişi hamının bir bir-birinə qarışdığını görüb dəhşətə gəldi. "Yuxudan ayılan kimi oldu. O haraya düşmüşdü? Arvad xoflandı. Bu hürkü Allah xofundan da dəhşətli idi" (6, s.164-165). Burada diqqəti cəlb edən məqamlardan biri də, Cahandar ağa və Şahnigar xəttidir. Görkəmli tədqiqatçı, professor Təyyar Salamoğlu bu haqda yazır:

"Şahnigarın və Qəmərin (atın) öldürülməsi ağır, tükürpərdici səhnələrdir. Lakin Cahandar ağanın bu hərəkəti dəhşətli sarsıntıdan doğur, başqa çıxış yolu tapa bilməyən insanın əl atdığı son "çarə"dən – çarəsizlikdən güc alır. Yazıçı hər iki epizodda qəhrəmanın çəkdiyi iztirabın, yaşadığı ağrıların nəhayətsizliyini psixoloji cəhətdən sənətkarlıqla əks etdirmişdir (7, s.112)."

"Nur baba" və "Dəli Kür" romanını müqayisəli tədqiq etdikdə, Bektaşilik, Nigarilik necə olmalıdır deyil, Nur baba və Molla Sadıq dərgahındakı dinin, Bektaşi və ya Nigari olmağın hansı məna kəsb etdiyi göstərilir. Tədqiqatçı R.Güləndam, yuxarıda qeyd etdiyimiz məqalədə göstərir ki, türk cəmiyyətində önəmli rolu olan dinin və din xadimlərinin roman janrında prototiplərinin əks olunması heç də tamamilə reallığı əks etdirmir. (1, s.303). Ramazan Kaplan da, "Türk romanında kənd" adlı monoqrafiyasında "Dinin real və ya reallığa yaxın yönləriylə kənd romanına girmiş olduğunu demək olmaz. Dinə, dindar insanlara, dini qavramlara hücum etmə, alçaltma, pisləmə kimi yanaşmalar ortaq bir tutum halına gəlmişdir. Haqsızlığa uğrayanların dinə önəm verməyən obrazlar olduğu, amma haqsızlığı edənlərin dindar olaraq göstərilməsi də diqqəti cəlb edən nüanslardandır (8, s.252)."

Əslində bu fikirlər, XX əsrin əvvəlləri Atatürkün dinin dövlətdən ayrılması (laiklik), bir müddət təkkə və zaviyələrin qapadılması məsələsi ilə əsaslandırılır. Amma Yaqub Qədri Qaraosmanoğlu da, əsərinə belə bir izahat verir. "Ənənədən qaynaqlanan əsl Bektaşilər, Bektaşi dərgahlarının bu günkü halı qarşısında qan ağlayır. Mən də onlardan biriyəm və bura barmağımı qoyaraq hardan başlamaq lazım gəldiyini bu kitabda göstərməyə çalışıram (5, s.24)". Yazıçı bir daha, bütün bunların hər hansı bir real tarixi hadisə ilə əlaqəsi olmadığını, tamamilə öz xəyal gücü ilə ələ alındığını qeyd edir. Eyni motiv, Niyazi Əhməd Banoğlunun "Bektaşi qız" (1945) əsərində də davam etməkdədir (9) (10). Əsərdə, Bektaşi bir oğlanla evlənmək üçün, dayəsi ilə birlikdə evdən qaçıb, təkkəyə gələn gənc bir qızın hekayəti nəql olunur. Bu əsərin sonunda da, qızın dilindən, "Nə kiməsə Bektaşi ol, nə də kiməsə Bektaşilik pisdir deyə bilərəm. Mən gəncliyimdə yaxşı bir Bektaşi ola bilmədim, amma qocalığım əsl Bektaşi kimi keçdi. Allah heç kəsi doğru yoldan ayırmasın (11, s.67) " deməklə əsl məramını açıqlayır. Yuxarıda qeyd etdiyimiz kimi, bu tipli əsərlər haqqında paradoksal münasibət mövcuddur. Bir çox tədqiqatçı bu tipli əsərlərin zamanın diktəsiylə ortaya çıxdığı mülahizəsini irəli sürdüyü

halda, Aytaş Qiyasəddin öz məqaləsində bu məsələyə bir qədər tənqidi-nöqteyi nəzərdən yanaşılmalı olduğunu vurğulayır (12).

*Bütün bunlara nəzər saldıqda, bu qənaətə gəlirik ki, həm "Dəli Kür", həm də "Nur baba" romanında din pərdəsi altında hərəkət edib, yalnız öz mənfəətini düşünən "din xadimlərinin" əsl siması açılıb göstərilməklə, dini-fanatizm tənqid atəşinə tutulur. Professor Kaplanın ifadəsiylə desək, əsəsrdə "dinî hüviyyətini itirmiş bir Bektaşi dergahının" (13, s. 56) eləcə də Nur babaların timsalında, din pərdəsinə bürünmüş, "şeyxlərin" iç üzü, dağılan, milli kimliyindən uzaqlaşaraq yeni axtarışlara başlayan İstanbul kübar təbəqəsinin tükənişi, "müasirləşərək" sərbəstlik qazanmağa başlayan qadın-kişi münasibətləri, insanların mənfəətləri uğrunda mili-mənəvi, dini dəyərləri heçə sayması, bir sözlə köhnə-yeni konflikti, inanc sisteminin sarsılması kimi mühüm məsələlər öz bədii ifadəsini tapır.*

## Ədəbiyyat:


1. Gülendam R. "Türk romanında dine ve din adamına bakış", Hece/Türk romanı özel sayısı/ aylık edebiyat dergisi yıl:6 sayı: 65/66/67, Ankara, 2002, s. 303-312.
2. Enginün İ, Cumhuriyet Dönemi Türk Edebiyatı. İstanbul: Dergâh Yayınları 2016, 542 s.
3. Aytaş Q. Tematik roman incelemeleri, Ankara: Akçağ yayınları, 2014, 264s.
4. Gariper C., Küçükcoşkun Y, II. Meşrutiyet Döneminde Yayımlanan "Nur Baba" romanı ve yarattığı akisler, Bilig dergisi, Güz / sayı 47, 2008, s.45-78.
5. Karaosmanoğlu Y.K. Nur baba, İstanbul: Birikim yayınları, 1977, 288 s.
6. Şixlı İ. Dəli Kür, Seçilmiş əsərləri, İki cilddə, II cild, Bakı: Şərq-Qərb, 2005, 400 s.
7. Salamoğlu T. İsmayıl Şıxlının bədii nəsri, Bakı: "E.L." NPŞ MMC, 2014, 176 s.
8. Kaplan R. Cumhuriyet dönemi türk romanında köy, Ankara: Akçağ yayınları, 1997, 608 s.
9. Aytaş G. "Bektaşi kız" adlı roman hakkında bazı tespitler. Hacı Bektaş Velî araştırma dergisi, Güz, Sayı: 11, 1999, s. 53-60.
10. Üstten Uslu A. Türk romanında Alevi ve Bektaşi kadın algısı, Türk kültürü ve Haci Bektaş Veli araştırma dergisi, Sayı 71, 2014, s. 197-208.
11. Banoğlu N. A., Bektaşı kız, İstanbul: Vakit Matbaası, 1945.
12. Aytaş, G, "Nur Baba Romanında Yozlaşan Bektaşîlik", Hacı Bektaş Veli araştırma dergisi, Bahar, Sayı:9, Mayıs, 1999, s.65-74.
13. Kaplan M. Türk Edebiyatı Üzerinde Araştırmalar 2, İstanbul: Dergâh Yay, 1987, 560 s.


*(Qeyd: Bu iş Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir - Qrant №EİF/GAM-3-2014-6(21)-24/22/5)*

**Эшгана Бабаева**

## Критика религиозного фанатизма в романах Якуба Кадри Гараосманоглу «Нур Баба» и Исмаила Шихли «Дели-кура»


### *РЕЗЮМЕ*

В Азербайджанской и турецкой литературе произведения подвергаются критике со стороны религиозного фанатизма и суеверий. В Турции, эти вопросы были затронуты в частности, в романах писателей Якоб Кадри Гараосманоглу, Халида Адиб, Рашад Нури Гюнткин и др.

В статье рассмотрены работы турецкой литературы с точки зрения критики религиозного фанатизма, сопоставимой с романом Гараосманоглу «Нур баба», сравнимым с романом Исмаила Шихли «Дели-кура».

**Eshgane Babayeva**

**The criticism of religious fanaticism in the novels ``Nur baba`` by Yagub Gadri Garaosmanoghlu and ``Dali Khur`` by Ismayil Shikhli**

***SUMMARY***

There exist many written works criticize religious fanaticism and superstition in both turkish and azerbaijani literature. Especially, in Turkey these problems touched upon in the novels of Yagub Gadri Garaosmanoghlu, Xalida Adib Adivar, Rashad Nuri Guntakin and others.

In this article, we focus on literary works include this theme in turkish literature and comparative study of novels ``Nur baba`` by Yagub Gadri Garaosmanoghlu and ``Dali Khur`` by Ismayil Shikhli from the critical aspect of religious fanaticism.

*Redaksiyaya daxil olma tarixi: 03.05.2018*
*Çapa qəbul olunma tarixi: 11.06.2018*

Filologiya üzrə elmlər doktoru, professor **Aydın Abıyev**
tərəfindən çapa tövsiyə olunmuşdur.